# Kriminal hadisələrin bədii ifadəsi

## Yazıçı Elbrus Kəlbiyevin "Şahmat qaydaları ilə qətl" və "Ölülərin pıçıltısı" romanları barədə qeydlər

**Bəri başdan etiraf edək ki, hər iki roman dediktiv janrda yazılıb və müəllif bu əsərləri ərsəyə gətirərkən xeyli zəhmətə qatlaşıb. Zəngin kriminal hadisələrin zəncirvari gedişi, mətləb ardıcıllığı, bədii təsvir vasitələrinin ustalıqla yerində işlənmə mexanizmi, dil təmizliyi və axıcılığı çəkilən zəhmətin hədər getmədiyini təsdiqləyən faktlardır. Elbrus Kəlbiyev ali hərbi təhsil alıb, ixtisasca psixoloqdur və görünür, Azərbaycan ordusunda zabit kimi xidmət göstərərkən (indi polkovnik-leytenant kimi təqaüdçüdür) tələsməyib, müşahidələr aparıb, vaxt itirmədən oxuyub-öyrənib, söz sənətinin sirlərinə vaqif olub və iri həcmli, maraqlı romanlar yazmaqla təcrübəsini, istedadını ortaya qoyub.**

### *Mövzular*

nə qədər oxşar olsa da, biri digərini təkrar etmir. Fəsillərə, ayrı-ayrı başlıqlara bölünən rəngarəng mətnlər arasında keçidlər gözlənilməzdir, orijinaldır, oxucunu yorub əldən salmır, əksinə, maqnit kimi çəkir və dərhal oxuyub məğzinə varmaq, əsəri ehtirasla başa çatdırmaq istəyirsən.

Öncə, "Şahmat qaydaları ilə qətl" barədə... Birnəfəsə mütaliə etdiyimiz kitab 230 səhifədən ibarətdir. Romanda çoxlu surət, obraz bolluğu var. Ancaq əsas hadisələr iki qəhrəman arasında gedən gizlin, aşkar mübarizə və mücadilədir. Birincisi uzaq, mənzərələi Obalı rayonuna təyin olunan prokuror, dövlət ittihamçısı olan İlyas Ocaqov, o birisi cinayət aləmində böyük nüfuz qazanmış hiyləgər "tülkü" ləqəbli Rüstəm adlı avtoritetdir. Sənətini mükəmməl bilən qanun keşikçisi rayona təyin olunan kimi peşəkar cinayətkar şəbəkə ilə üz-üzə dayanır. Şahmat qaydalarına uyğun tördilən qətllər polis əməkdaşları tərəfinindən açılmır ki, açılmır. Nə qədər yüksək səviyyədə istintaq getsə də, yığılan materiallar əsas canini tutmağa kömək etmir. Çünki o, işini elə sahmanlayır, nə qurbanları ondan xəbər tutur, nə iz, nişanə buraxır. Prokuror Ocaqov vəziyyətin dözülməzliyi, istintaqın acizliyi ilə barışmır. "Daş qayaya rast gəlib" prinsipi ilə hərəkətə başlayır, ölümlə dəfələrlə üz-üzə gəlməklə həyatını təhlükə qarşısında qoyur. Respublikaya mənfi mənada səs salmış, ucu Sankt-Peterburqa çıxmış cinayətkar, avtoritet-oğru aləminin işinə təkcə nəzarət etmir, bilavasitə məsələyə girişir.

Gizlin qəhrəman, köhnə şahmatçı Rüstəmlə (tülkü) şəxsən haqq-hesaba başlayır. Bağlı qalan, prokurorun, polisin baş ağrısına çevrilən şahmat qaydaları ilə qətllər isə kəsilmir, ard-arda davam edir, əhalini təşvişə salır, qorxu-vahimə az qala Obalı rayonunu iflic eləsin. Baş cani tülkü bir tikə yağlı əppəyə dönüb ilim-ilim itib, gözdən-qulaqdan yayınıb. Müstəntiqlərin, kriminalistlərin, prokurorların birgə səyləri isə nəticə vermir ki, vermir. Doğrudur, şələquyruq tülkü Rüstəmin səssiz-səmirsiz aradan götürdüyü adamlar da sağlam şəxslər deyil, cəmiyyətin tör-töküntü ünsürləridir. Onlar da hansısa cinayət qrupları ilə əlbir, dilbirdilər. Lakin prokuror İlyas Ocaqovun məntiqinə görə, bu məsələləri araşdırıb islah etmək inzibati dövlət orqanlarının işidir, hansısa oğrubaşının yox. Onu qıcıqlandıran, ona yer eləyən elə bütün bunlardır, axı o, dövlət ittihamçısıdır. Ali təhsilli hüquqşünas olaraq dövlətin mənafeyini qorumaq adətən prokurora tapşırılır. Budur, hansısa cinayətkar müxtəlif qiyafələrə girərək qarşısında at oynadır (Tülkü Rüstəmin dilənçi, səfil qarı, saqqallı yaşlı qoca əbasını geyinərək məkrli əməllərini davam etdirmək epizodlarını yadımıza salaq).

### *Obalıda qətlə yetirilən,*

**əlində idman qəzetinin səhifəsini tutan Qulamın müəmmalı ölümündən sonra rayon mərkəzində - kafedə Ramiz adlı kənd sakini zəhərlənir, canını tapşırır. Bu hadisə üç polisin gözünün qarşısında baş verir. Əvəz adlı bir şəxslə xarço yeyərkən qəfildən sancılanan Ramiz ağrısının şiddətinə dözə bilmir, ölür. Yanındakı Əvəz bunu görən kimi yerindən sıçrayıb qaçır və tapılmır. Təcili surətdə hazırlanan əməliyyat qrupu nə illah edirsə, Əvəzi tuta bilmir ki, məsələni çözələyə bilsinlər. Müəllif İlyasın narahatlığını ifadə etmək üçün psixoloq kimi daxili təlatümünü göstərməyə çalışır.**

"...Hamı çıxandan sonra İlyas gözünü yumdu. O, çox yorulmuşdu. Beş dəqiqə istirahət etmək istədi. Ancaq içindəki məsuliyyəti ona əmin-amanlığına cavabdeh olduğun rayon, müharibə meydanına dönmüşkən sənə beş dəqiqə də olsa, istirahət yoxdur- deyə pıçıldadı. O, gözlərini aşıb ayağa qalxdı. Pəncərənin önünə keçdi. Prokurorluğun yaxınlığında ucalan qoşa çinar ağaclarının gözəlliyini, əzəmətini seyr etmək İlyasın gərilmiş əsəblərini az da olsa, sakitləşdirdi. Qayıdıb yerində əyləşdi və iş bloknotunda cavabını tapa bilmədiyi daha bir sualı qeyd etdi... Əvəz niyə qaçsın ki? - deyə







düşünərək bloknotu yerinə qoydu. Elə bu vaxt gözü masanın üstündəki şahmat kitabına sataşdı. Gülümsədi və kitabı götürərək vərəqlədi. Kitab çox maarqlı idi və ən sadədən, yəni oyunun qaydalarının izahından başlayır və şahmat nəzəriyyəsinin son nəaliyyətləri ilə bitirdi"...

### *İstər "Şahmat qaydaları ilə qətl",*

istərsə də "Ölülərin pıçıltısı"- oxucunu axıradək intizarda saxlayır və heç kəsin gözləmədiyi sonluqla başa çatır. Kitabları oxuyarkən qəti fikir yürütmək olmur. Müsbət personaj kimdir, mənfi tip kim?! Bu, Elbrusun uğurudur. Yalnız qanunçuluğun keşiyində dayanan, peşəsinə xüsusi sevgisiylə fərqlənən, əqidə uğrunda ölümə gedən prokuror Ocaqov hamıdan fərqlənir, ucada dayanır. Prokurorun təbirincə intellektual oyun sayılan şahmatın qaydalarına uyğun köhnə şahmat ustasının- tülkü ləqəbli cinayətkar Rüstəmin ələ keçirdiyi qurbanlarına tətbiq etdiyi ölüm cəzası bu stolüstü idman növünün sinvolik, həyati düsturudur.

**Şah qambiti (badalaq), gediş başa çatdı? Strateji səhv, Sadə qələbə, (Dahi Kubalının üçüncü dünya çenpionu Kapablanka, mənşəcə ispan), Son döyüş və ya inanılmaz endişpil, Qanlı oyunun analizi yarımbaşlıqları sübut edir ki, İlyas Ocaqov işinin xatirinə həm praktik cəhətdən, həm də nəzəri baxımdan şahmatı möhkəm öyrənmiş, cinayət-oğru aləminin üzvlərini sonda mat qoya bilmişdir. Yəni onları öz silahları ilə vurmağa nail olmuşdur.**

"Ölülərin pıçıltısı" dedktiv romanında da əsas fiqur Şirvan prokuroru İlyas Ocaqovdur (bu dəfə sadəcə şərti məkan başqa yer seçilib). Əsərin obraz-surət bolluğu göstərir ki, qarşında silsilə hadisələrin iştirakçıları var. Onlar biznes sahəsinin, inzibati orqanların, incəsənət, teatr aləminin, tələbə həyatının təmsilçiləridir. Məhz elə Oksvord (İngiltirə) Universitetinin tələbəsi Adil Çobanzadənin dönə-dönə şikayəti əsasında prokuror İlyas Ocaqov amansızlıqla qətlə yetirilmiş Fərman Çobanzadənin işini yenidən araşdırır, qanlı olayın təfərrüatı ilə məğzinə varır, qatı cinayətkarı keçmiş həyat yoldaşı Cülinin timsalında tapır.

**Ancaq ilk baxışdan iş elə qurulmuşdru ki, guya Adilin atası Fərman öz tapançası ilə özünə qəsd edərək intihar etmiş, sonra bunu düşdüyü streslə əlaqələndirmişlər.**

### *Doğrudur,*

müəllif Fərmanın həyat yoldaşı olmuş Cülini istedadlı aktrisa, sonra ailə qurduğu Turanı savadlı, talantlı rejissor kimi təqdir edir, onların tamaşaya hazırladıqları Şekspirin məşhur "Kral Lir" əsərini yüksək dəyərləndirir. Hər şey isə Fərman Çobanzadənin kabinetində müəmmalı şəkildə intiharından sonra alt-üst olur.

Vahimə, səksəkə, şübhə "dişi canavar" Cülinin varlığını sarsıtsa da, içini qurd kimi qəmirsə də, o, ustalıqla görülmüş qətlin üstünün aşılmayacağına inanır, özünü təmkinli aparır. Prokurorla görüşəndə Fərmanın tək yadigarının- Ayişənin (ondan olan qız övladının) canına and içir, atasının ruhuna yalandan dua oxuyur, məhz Fərmanın faciəli ölümünə görə Ayişəyə yaxşı baxacağını söyləyir. Bu cür maskalanmış şəxsin daxili dünyasını yenə prokuror Ocaqovdan başqa heç kəs oxumağa qadir deyil.

Elbrus Kəlbiyev pərakəndə epizodlar arasında əlaqə yaratmağı bacarır. O, sübut etməyə çalışır ki, bir naməlum qətlin ətrafında onlarla şübhəlinin adı hallana bilər, necə ki Fərmanın ölüm məsələsini oğlu onda təsadüfən öldürülən Hətəmlə (təsadüfən ov tüfəngindən açılan atəş Muradı yaralamış və o, xəstəxanada keçinmişdir) daha sonra guya Cülinin eşqindən dəli-divanə olan, həkim Səttarla, biznes rəqibi Cəbrayılla, qanuni oğru İltimas və başqaları ilə bağlayırdılar. Ancaq faktlar, sübutlar həqiqətə doğru aparmalı, haqq-ədalət sonda qalib gəlməliydi. Necə ki qalib gəldi də.

Bu, asan başa gəlmədi. Doğrudur, dəfələrlə prokuror İlyas Ocaqovun sözü polis rəisi Saday Bəkirovun sözü ilə düz gəlmədi, fikirlər ayrıldı, mülahizələr haçalandı. Ümumi işin xeyrinə prokuror gah rəisə, gah müstəntiqə, gah da ekspertə güzəştə getdi, istintaqa rəhbərliyi tam öz üstünə götürdü və dəfələrlə məğlub duruma düşdü. Həyatını təhlükə qarşısında qoydu, o, qirimlənib ingilis qiyafəsində tərcüməçi (əslində, müstəntiq) Ülkər Məmmədovayla cinayətkarların ailələrinin içinə yol tapdı. Bunun üçün uzaq məsafə qət edib Tovuzun Çaylı kəndində oldu. Təkzibedilməz dəlil tapdı- 9 il əvvəl tapançadan atılan paslı patronu.

Müstəntiqdən ayrılıb tək qardaşının maşını ilə yola düşdü, izlənildi. Nəhayət, istirahət məkanlarının birində dincəlmək adıyla pusquda durdu, ovunu ustalıqla tələyə saldı, qollarını bağlayıb maşının yük yerinə qoydu.

### *Yazıçı*

rayon prokurorunu cəsur, igid, işini mükəmməl bilən müdrik şəxsiyyət səviyyəsinə qaldırır. Bəzən ən kiçik, əhəmiyyətsiz görünə biləcək əşya dərhal diqqətini cəlb edir. Məsələn, Fərmanın otağında tapılan, rəngli, qeyri-adi qələmi yada salaq. O, əvvəlcə qələmin nədən hazırlandığını, işıldayan kimyəvi tərkibini öyrənir və fəhmi, mühakiməsi, müəyyən məsələləri İlyasa diqtə edir. Elə tərkibi latınca cu-li olan hadisənin açılmasında rol oynayır. Məlum olur ki, onun tərkibini Fərman xüsusi olaraq arvadı Cülinin şərəfinə hazırlatdırıb. Və yaxud dəmiryolu ilə hərəkət edən qatarın sürət həddini keçib qəfildən ildırıb kimi ötməsi və s. və i.a

**Əlbəttə, eybsiz gözəl olmaz- deyiblər. Məsələn, kitabalrın hər iksisində çoxlu qramatik, durğu işarələri səhvi var, eyni zamanda yer adları olan toponimlər kiçik hərflərlə yazılıb. Halbuki xüsusi isim kimi onlar böyük hərflə başlamalıdır. Misal kimi Qanlı təpəni göstərmək olar. Bunlar isə məncə xırda texniki qüsurlardır və kitabların növbəti nəşrlərində aradan götürmək mümkündür.**

**Ağacəfər Həsənli**